- Sahibkarları biznes fəaliyyəti ilə bağlı dövlət və özəl qurumlarla əlaqələndirmək;
- Mikro, kiçik və orta biznes subyektlərinin inkişaf ehtiyaclarını sorğu və digər vasitələrlə öyrənmək.




**KOB DOSTU OFİSLƏRİNİN ÜNVANLARI VƏ DİGƏR ƏLAQƏ VASİTƏLƏRİ**

KOB Dostu

www.smb.gov.az

## KOBİA HAQQINDA

### YARADILMASI:

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli Fərmanı ilə yaradılıb. Dövlət başçısının 26 iyun 2018-ci il tarixli Fərmanı ilə Agentliyin nizamnaməsi və strukturu təsdiq edilib.

### MƏQSƏDİMİZ:

Mikro, kiçik və orta biznesin inkişafına dəstək göstərməklə ölkə iqtisadiyyatında, məşğulluqda və ixracda KOB subyektlərinin rolunun artırılmasına, rəqabət qabiliyyətinin gücləndirilməsinə nail olmaqdır.

### FƏALİYYƏT İSTİQAMƏTLƏRİMİZ:

- Biznes mühitinin yaxşılaşdırılmasında iştirak
- Biznesə dövlət xidmətlərinin yaxşılaşdırılması və KOB maraqlarının müdafiəsi
- Bilik və innovasiyalara çıxışa dəstək
- Bazarlara çıxış imkanlarının genişləndirilməsi
- Maliyyəyə çıxışın yaxşılaşdırılması

### “KOB DOSTU” KİMDİR?

Kiçik və orta biznesin dostu (KOB dostu) KOB-lara dəstək mexanizmlərindən olmaqla, həm də KOBİA-nın yerlərdəki nümayəndələridir. KOB dostu fəaliyyət göstərdiyi inzibati ərazidə biznes fəaliyyəti ilə bağlı sahibkarlara dəstək göstərir.

### “KOB DOSTU”NUN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

- Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin yaradılmasına, mövcud bizneslərin inkişafına dəstək göstərmək;
- Sahibkarların investisiya təşəbbüslərinin reallaşdırılmasına dəstək olmaq, yerlərdə potensial investisiya layihələrinin KOB-lar vasitəsilə həyata keçirilməsini təşviq etmək;
- Sahibkarların qanuni maraqlarının qorunmasına və problemlərinin həllinə dəstək olmaq;
- Sahibkarları mövcud dövlət dəstək mexanizmləri, o cümlədən KOBİA-nın xidmətləri barədə məlumatlandırmaq və onlardan yararlanmağa kömək etmək;